# Qəhrəmanlıq səhifəsi

1990-cı ilin Qanlı yanvar gecəsindən sonra Bakıda, eləcə də Neftçalada dəhşətli olaylar davam etdi. İmperiya qoşunları üç nəfər Neftçala sakinini - Əbülfəzi, Nurəddini və Şəmsəddini əlimizdən aldı.

Sovet ordusu Bakıya hansısa çevriliş təhlükəsinin qarşısını almaq üçün yox, məhz xalqımızı qorxutmaq, gözümüzün odunu almaq üçün gəlmişdi. Onlar fərqinə varmadan həyətində iş görən adi dinc sakini də, yoldan təsadüfi ötənləri də atəşə tutdular. Bankə qəsəbəsində hərbi qarnizonun binasında işgəncələrə dözməyərək “Qardaşlar, Vətən yolunda qurban gedirəm” - deyə can verən Əbülfəz də, yolda düşmən gülləsinə tuş gələn Nurəddin də, evinin içində güllədən köksü dağılan Şəmsəddin də neftçalalılar üçün böyük itki idi.

1990-cı ilin 20 Yanvar hadisələrini hərə bir cür yaşayıb. Təəssüf doğuran o idi ki, xalqımızın şəhidlər verdiyi faciəli günlərdə heç bir dövlət məmuru bu hadisəyə rəsmi bəyanatla münasibətini bildirmədi, xalqın qəzəbindən qorxaraq şəhidlərin dəfn mərasimində iştirak etmədi, yas içində olan xalqına başsağlığı vermədi. Azərbaycan Xalq Cəbhəsinin təmsilçiləri hakimiyyətdə olduqları müddətdə faciəyə siyasi qiymət vermək bacarığında olmadılar.

Yanvarın 20-də Bakıda və respublikamızın digər bölgələrində törədilmiş faciəli hadisələrin tam siyasi-hüquqi qiymət almaması ulu öndər Heydər Əliyevin “20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi haqqında” 1994-cü il 5 yanvar tarixli fərmanında göstərilmiş və bununla əlaqədar Milli Məclisin xüsusi iclasının keçirilməsi tövsiyə olunmuşdur. Milli Məclisdə bu məsələyə baxılarkən yaradılmış komissiya tərəfindən Ali Sovetdə, Prezident Aparatında, Azərbaycan Respublikasının Prokurorluğunda, Milli Təhlükəsizlik Nazirliyində, Daxili İşlər Nazirliyində, Baş Arxiv İdarəsində olan materiallar və deputat-istintaq komissiyasının rəyi nəzərdən keçirilərək müvafiq qərar qəbul edilmişdir.

İllər keçəcək, qərinələr ötəcək, amma 1990-cı ilin Qanlı yanvarı heç vaxt yaddan çıxmayacaq. Bu hadisələr həm də yaddaşlarda xalqımızı azadlığa çıxaran, müstəqilliyə qovuşduran qəhrəmanlıq tarixi kimi qalacaq.

***Əlövsət ƏLİYEV,***
***Neftçala şəhər sakini***